# Arzu və ümidlərimiz gerçəkləşir

***Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bugünlərdə yenidən mənim doğulub boya-başa çatdığım, 30 ilə yaxın həsrət qaldığım Ağdamda olmuşdur.***

Mən Ağdamın Göytəpə kəndində dünyaya göz açmışam. Uzun illər Xankəndidə, Şuşada məsul vəzifələrdə çalışmışam. Birinci Qarabağ müharibəsinin veteranıyam.

Cənab Prezidentin Ağdama hər səfərini diqqətlə izləmişəm. "Qafqazın Xrosiması" adlandırılan Ağdamın bərpasının baş planının hazırlanması xəbərini də cənab Prezidentimizdən eşitmişdik. Bu baş planda sanki hər bir ağdamlının fikri öyrənilib. Yəni o qədər dəqiq və incəliklə hazırlanıb ki, ora nə isə əlavə etməyə ehtiyac yoxdur, ideal plandır. Burada bütün incəliklər əksini tapıb. Hətta Ağdamın müxtəlif yerlərində, havanın, suyun, torpağın keyfiyyəti belə təhlil olunub ki, bu ərazidə hansı ağaclar daha yaxşı bitər...

Bütövlükdə, Ağdam şəhəri 100 min nəfər üçün nəzərdə tutulub. Onun ərazisi işğaldan əvvəlki ərazi ilə müqayisədə iki dəfədən çox böyükdür. Bu, həm də, ilk növbədə, cənab Prezidentin bütövlükdə Qarabağa çox böyük dəyər verdiyinin əyani sübutudur.

Prezident ötən dəfə buraya səfəri zamanı Ağdamda yaşayış binasının, 1 nömrəli məktəbin, Qələbə və İşğal muzeylərinin əsasını da qoymuşdu. Düşünürəm ki, çox qısa müddət ərzində bütün Qarabağ, o cümlədən də Ağdam bərpa olunacaq, tamamilə yeni simasını alacaq. Cəmi 44 gün ərzində torpaqlarımızın işğaldan azad olunması da bunu təsdiq edir ki, biz güclü xalqıq və eyni zamanda, qüdrətli liderimiz var.

Ağdama bu dəfəki səfərində cənab Prezident bərpa işlərinin ikinci mərhələsinin başlandığını bildirdi. Ağdamın Cümə məscidindəki çıxışında dövlət başçısı dedi: "Ağdam rayonunun bərpası ilə bağlı kompleks tədbirlərin görülməsi bizə imkan verəcək ki, qısa müddət ərzində Ağdamı yenidən quraq, yaradaq. Bu gün Ağdamın gələcək inkişafı ilə bağlı çox önəmli addımlar atılmışdır, bir neçə təməlqoyma mərasimi keçirilmişdir. Hesab edirəm ki, qısa müddət ərzində görülmüş işlər yaxın gələcəkdə konkret nəticələrə gətirib çıxaracaq".

Ağdamlılar Prezidentimizin bu sözlərinə ürəkdən inanır və bilirlər ki, dövlət başçımızın hər kəlməsinin arxasında böyük quruculuq işləri dayanır və biz bunun canlı şahidiyik.

Cənab Prezident keçən il Ağdam Sənaye Parkının təməl daşını qoymuşdu. Ağdam şəhərinin gələcək inkişafı ilə bağlı planda, ilk növbədə, yaşayış binalarının inşası və iş yerlərinin açılması əsas yer tutur. Prezidentimiz bildirdi ki, burada yaşayacaq insanlar işlə təmin olunmalıdır. İş yerlərinin yaradılması ilə bağlı əlavə addımlar da atılacaq. Əminəm ki, yaxın gələcəkdə Ağdam Sənaye Parkında onlarca müəssisə işə başlayacaqdır. Azərbaycan iş adamlarına da mən bu gün burada – Ağdam Cümə məscidinin önündə çağırış edirəm ki, gəlsinlər həm Ağdama, həm də azad edilmiş bütün digər ərazilərə sərmayə qoysunlar, vəsait qoysunlar.

Prezidentimiz bu səfəri zamanı Ağdamda mehmanxanasının, Mərkəzi Şəhər Xəstəxanasının da təməli qoyuldu.

Dövlət başçımız onu da bildirdi ki, Ağdamın yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulur. Bərdə-Ağdam avtomobil yolu, dəmir yolu inşa edilir. Avtomobil yolu təqribən bir ilə hazır olacaq. Füzuli–Ağdam avtomobil yolunun çəkilişi layihəsi artıq icra olunmağa başlamışdır. Bu yol həm Füzuli və Ağdam şəhərlərini, eyni zamanda, Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcək və Ağdama başqa ölkələrdən gəlmək daha asan olacaq.

Bu gün artıq ağdamlılar yeni avtobus marşrutdan istifadə edərək öz



doğma yurdlarına gedə bilirlər.

Əlbəttə, Ağdamda aparılan quruculuq işlərində Heydər Əliyev Fondunun böyük xidmətləri var. Fondun həyata keçirdiyi quruculuq işləri bu gün də davam etməkdədir. Dövlətimizin başçısı Cümə məscidindəki çıxışında bunu xüsusi olaraq vurğuladı: "Bütün bu işləri Heydər Əliyev Fondu öz imkanları hesabına görür. Bu, Heydər Əliyev Fondunun Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunmasına növbəti töhfəsidir. Bu, bizim borcumuzdur. Bunu biz edirik. Vətən qarşısında bu borcu şərəflə yerinə yetiririk. Necə ki, Vətən müharibəsində Azərbaycan xalqı tarixi ədaləti bərpa etdi, düşməni doğma torpaqlarımızdan qovdu".

Ağdamlılar öz dövlət başçılarının siyasi kursunu ürəkdən dəstəkləyirlər. İnanırlar ki, bu siyasət Azərbaycanı dünyanın qabaqcıl ölkələri sırasına çıxaracaq, məcburi köçkünlər də öz ata-baba yurdlarına qayıdıb, firavan yaşayacaqlar.

***Sadir MƏMMƏDOV,***
***ehtiyatda olan polkovnik,***
***Bakı Slavyan Universitetinin Azərbaycanşünaslıq elmi-tədqiqat laboratoriyasının müdiri***

Xalq qəzeti .- 2022.- 15 fevral.- S.9.